# "Simurq Liseyi" Təhsil Kompleksi MMC
# Ev tapşırığı siyasəti

## Ev tapşırığının məqsədi

Simurq Liseyi hesab edir ki, ev tapşırığı sinifdə keçirilən dərsləri dəstəkləməli və mənalı nəticələr verməlidir.
Ev tapşırığının verilməsinin müxtəlif səbəbləri var. Bunlara daxildir:

- özünənəzarət, oxuma vərdişləri, planlaşdırma və vaxtın düzgün idarə olunması bacarıqlarının inkişaf etdirilməsi,
- sinifdə görülən işlərin möhkəmləndirilməsi, genişləndirilməsi və təkrarlanması,
- gələcək dərslərə hazırlıq,
- şagirdlərə müstəqil işləmək təcrübəsinin qazandırılması,
- şagirdlərdə öz təhsillərinə qarşı məsuliyyət və öhdəlik hissinin formalaşdırılması,
- testlərə və qiymətləndirmələrə hazırlıq,
- bacarığı daha yüksək olan şagirdlərin əlavə şəkildə inkişaf etdirilməsi və qarşıya yeni hədəflər qoyulması,
- daha çox dəstəyə ehtiyacı olan şagirdlər üçün hədəfli və fərdi dəstək göstərilməsi.

## Siyasət bəyanatı

Simurq Liseyi ev tapşırığını sinifdə öyrənilən biliklərin möhkəmləndirilməsi, müstəqil öyrənmə bacarıqlarının inkişafı və şagirdlərdə məsuliyyət hissinin formalaşdırılması üçün effektiv vasitə hesab edir.
Bu Ev Tapşırığı Siyasəti, məktəbin tədris məqsədlərinə uyğun olaraq ev tapşırıqlarının verilməsi və yerinə yetirilməsi ilə bağlı aydın gözləntilər, qaydalar və məqsədlər müəyyən etmək üçün hazırlanmışdır.

**Simurq Liseyi məktəbəqədər mərhələsi – Ev tapşırığının tezliyi**

Müəllimlər həftədə bir dəfə (hər cümə günü) ev tapşırığı verəcəklər.
Tövsiyə olunan müddət: İngilis dili üçün 20–30 dəqiqə, Riyaziyyat üçün 20–30 dəqiqə.

**Simurq Liseyi İbtidai sinif mərhələsi – Ev tapşırığının tezliyi**

Müəllimlər hər fənn üzrə hər həftə bütün şagirdlərə ev tapşırığı verəcəklər.
Bu, bir ümumi tapşırıq və ya iki qısa tapşırıq şəklində ola bilər.

- 1-ci və 2-ci siniflərdə hər fənn üzrə ev tapşırığının icrası üçün 30 dəqiqə, oxu üçün isə 10 dəqiqə tövsiyə olunur.
- 3-cü və 4-cü siniflərdə isə ümumilikdə 1 saat: 20 dəqiqə oxu, 40 dəqiqə fənn tapşırığı.

**Simurq Liseyi orta sinif mərhələsi – Ev tapşırığının tezliyi**

Müəllimlər hər fənn üzrə hər həftə bütün şagirdlərə ev tapşırığı verəcəklər.
Bu, bir tapşırıq və ya iki qısa tapşırıq şəklində ola bilər.

Tövsiyə olunan müddət: 45-60 dəqiqə

**Ev tapşırıqlarının tezliyi:**

- İngilis dili, Riyaziyyat (Math), Elm (Science) – həftədə 3 dəfə
- Azərbaycan dili və ədəbiyyatı, Tarix, Coğrafiya – həftədə 1–2 dəfə
- Azərbaycan tarixi – ev tapşırığı və test yoxdur, yalnız layihə əsaslı öyrənmə.

**Asudə vaxt üçün oxu:** Həftədə 50 səhifə (şiddətlə tövsiyə olunur).

**Ev tapşırığının yerinə yetirilməməsi**

**Əgər şagird ev tapşırığını yerinə yetirməzsə, ona adətən ikinci şans verilir.**

**Şagirdin məsuliyyətləri**

- Dərsdə ev tapşırığı ilə bağlı təlimatlara diqqətlə qulaq asmaq,
- Tapşırığı vaxtında yerinə yetirmək və təhvil vermək,
- Bütün tapşırıqları vicdanla və maksimum səy göstərərək yerinə yetirmək,
- Lazım gəldikdə, tapşırıqla bağlı problemləri son tarixdən əvvəl müəllimlə həll etmək,
- Əgər dərsdə iştirak etməyibsə, hansı tapşırığın buraxıldığını öyrənmək və onu tamamlamaq. Tapşırığın verildiyi və ya toplanıldığı gün dərsdə olmamaq, tapşırığı etməmək üçün səbəb hesab edilmir.

**Məktəbin məsuliyyətləri**

- Hər fənn üzrə məqsədyönlü və müntəzəm şəkildə ev tapşırığı vermək, aydın təlimatlar təqdim etmək,
- Hər tapşırıq üçün ən azı bir həftəlik müddət müəyyən etmək,
- Tapşırıqların icrasına nəzarət etmək və nəticələri qeyd etmək,
- Müəllimlər ev tapşırıqlarının qeydiyyatını aparmalı və nəticələri fənn bölmə rəhbərlərinə təqdim etməlidirlər,
- Ev tapşırığı təhvil verilmədikdə müvafiq intizam tədbirləri tətbiq etmək,
- Tapşırıqlara şifahi və ya yazılı rəy bildirmək.
  Bəzi tapşırıqlar (onlayn öyrənmə və ya təkrarlama tapşırıqları) üçün əlavə rəy tələb olunmaya bilər. Rəyin verilməsi tələb olunduqda, bu, tapşırığın son tarixindən ən geci bir həftə sonra edilməlidir.

**Valideynin/Qəyyumun məsuliyyətləri**

- Şagirdə ev tapşırığında dəstək olmaq, lakin onun əvəzinə yerinə yetirməmək,
- İrəlilədikcə, ev tapşırıqlarının yerinə yetirilməsində şagirdi daha məsuliyyətli və müstəqil davranmağa təşviq etmək,

- Şagirdin evdə işləyə bilməsi üçün münasib mühit təmin etmək,
- Tapşırığın vaxtında yerinə yetirilməsini təşviq etmək və bu qaydalara əməl olunmadıqda məktəbin tədbirlərini dəstəkləmək,
- Şagirdə ev tapşırığının əhəmiyyətini izah etmək və məktəbin bu istiqamətdəki fəaliyyətini dəstəkləmək.

**Siyasətin tətbiqinin monitorinqi**

Müəllimlər bu siyasətə şagirdlər tərəfindən əməl olunmasına nəzarət edəcək və narahatlıq yarandıqda valideynlərlə əlaqə saxlayacaqlar.
Siyasətin effektivliyini təmin etmək üçün müntəzəm olaraq icmal xarakterli görüşlər keçiriləcək.

**Baxış və düzəliş**

Bu siyasətin effektivliyi dövri olaraq nəzərdən keçiriləcək və müəllimlərdən, şagirdlərdən və valideynlərdən alınan rəy əsasında zəruri dəyişikliklər ediləcək.

**"Simurq Liseyi" Təhsil Kompleksi MMC-nin Baş İcraçı Direktoru**

**Tural Abasquliyev**

**İmza**

AZƏRBAYCAN RESPUBLİKASI «SİMURQ LİSEYİ TƏHSİL KOMPLEKSİ» Məhdud Məsuliyyətli Cəmiyyəti AZERBAIJAN REPUBLIC